TURAN-SAM(TURAN-CSR)
YIL: 2012 * CİLT: 4 * SAYI: 15 * YAZ, 2012
YEAR: 2012 * VOLUME: 4 * ISSUE: 15 * SUMMER, 2012
TURAN STRATEJİK ARAŞTIRMALAR MERKEZİ DERGİSİ
(JOURNAL OF TURAN CENTER FOR STRATEGICAL RESEARCHES)
www.turansam.org

(4)

# ŞEKİ TÜRBELERİ

Cəmalə SƏFƏROVA Arif qızı

## ÖZET

Türk halk inançları tarihinde türbelerin yeri özel ve inkar edilemezdir. Manevi kültürün bir parçası olan dini inanç ve itikat insanlar tarafından uzun yüzyıllar boyunca korunarak bu güne kadar yaşatılmaktadır. Azerbaycan'ın eski şehirlerinden biri olan Şeki şehri dini köklerine bağlı olan ve kendi maddi ve manevi kültürünü bugünde içeren tarihi şehirlerimizdendir. Şehrin etnografik incelenmesi sırasında onu Azerbaycan'ın birçok kentlerinden ayıran mahalli-yerel özellikler arasında dini inançlarına olan bağlılık da ilgi alanı dışında kalmamıştır.

Genellikle, Sovyetler Birliği döneminde Azerbaycan'da türbelerin ve ya halk arasında söylendiği gibi "ocaq"lar ve "pir"ler adlandırılan, insanlar tarafından kutsal kabul edilen yerlerin araştırmasına önem verilmez, hatta bu manevi değerlerin tarihten silinmesi ve halk hafızasından unutulması için özel çalışmalar yapılırdı. Bu amaçla, 1924 yılında "Dine karşı komisyon" oluşturuldu, "Allahsız" isimli dergi yazılarak Azerbaycan'ın tüm ilçe ve köylerine dağıtıldı. XX yüzyılın 20-30'lu yıllarından başlayarak İslam dini aleyhine çalışmalar yürütülüyor, ateizm ideolojisi yaygın olarak tebliğ ediliyordu. Zoraki yollarla halk kendi eski gelenek ve göreneklerinden uzaklaştırılıyor, bereler, baş örtüsü yasak ediliyor, Kuran ve dini kitaplar yakılıyor, camiler depolara ve kulüplere çevriliyordu. Efendiler, seyidlər, mollalar ve diğer din adamları takip ediliyor, ibadetle meşgul olanlar cezalandırılıyor, direnenlerse sürgüne gönderiliyordu. Fakat buna rağmen, halk gizli şekilde kendi inanç ve itikatlarını sürdürüyordu, şimdi ise apaçık kendi değerlerine sahip çıkmaktadırlar. Bağımsızlık yıllarında kültürel irsimizin farklı şehir ve bölge olarak etnografik yönünden incelenmesine başlanmıştır. Araştırma alanı olan eski Şeki şehri de bugün İslam dini geleneklerini kendinde koruyan şehirlerimizden biridir. Şehrin farklı mahallelerinde bulunan ve çoğunluğunun eski tarihe sahip olduğu on iki camiden yarıdan fazlasının faaliyet göstermesi de buna açık delildir.

Buradaki türbelerin çoğunluğu, İslam dininin tebliği ile uğraşmış din adamlarının kabirleri çevresinde oluşmuştur. Zamanında yerel sakinlerin bu insanların kutsallığına olan inancı, sonradan onların mezarlarının inanç kaynağına dönüşmesine neden olmuştur. Bu türbelere yalnız yerli sakinler değil, aynı zamanda Azerbaycan'ın çeşitli bölgelerinden de insanlar geliyorlar. Mehmet Efendi, Yelbaba, Çarşamba ocağı, Güldeste türbesi, Nurehmed Efendi, Hacı Salman Efendi, İbrahim Efendi, Kalayçi baba, Nöyül baba, Su akın baba, Şeyh Ahmed Efendi, Selim amca, Dağdivi ziyareti, Babaratma piri, Öksürme piri, Şıxəhməd piri, Nartopu türbesi gibi nüfusun sürekli ziyaret ettiği bu inanç yerleri kendi tarihi, nüfus arasında oluşan mistik gücü, ayin ve törenleri, efsaneleri vb. ile büyük ilgi görüyorlar.

Bunların çoğu kutsal insanların mezarı etrafında oluşsada, bir kısmı doğa olayları ile ilgili olup, taş, ağaç, su ve diğer kultlarla ilişkilidir. Bu tipli inanç kaynaklarına diğer Türk halklarının manevi kültüründe de rastlanıyor. Makalede yapılan araştırmalar sırasında doğrudan yerel nüfustan toplanmış etnoqrafik materyaller kullanılmış, aynı zamanda bu konuda yazılmış bilimsel literatüre de referans edilmiştir.

**Anahtar Kelimeler:** Dini İnanç, Kültür Mirası, Manevi Kültür, Şeki, Türbe.

## (THE MUSLIM SHRINES IN SHEKI)

## ABSTRACT

The sacred places have the special and undeniable place in the history of Turkic peoples' beliefs. The religious beliefs and faiths as a part of moral culture have been saved and preserved by people througout the centuries until our time. One of the ancient cities of Azerbaijan, Shaki, is among those historical cities which are still linked to their religious roots and reflect their material and moral cultures nowadays. During ethnographic research in the city, religious affection drew our attention among its local characteristics, which differed it from many other cities of Azerbaijan.

In general, during the Soviet times, not only there was no attention to researches of places for pilgrimages in Azerbaijan, called "hearths" and "pirs" (sacred places) among population, but also actions were taken to erase such values from history and the people's memories. For this purpose, "Commission against religion" was set in 1924. The magazine named "Allahsiz" (Godless) was published and distributed to all regions and villages of Azerbaijan. Starting from 1920s and 1930s atheist ideology was widely propagated and numerous actions were taken to reduce the influence of Islam. People were, under compulsion, drifted apart from their ancient customs and traditions, hijabs and papakhs (male headdress) were forbidden, Koran and other religious books were burnt, mosques were converted into barns, warehouses and dance floors. Sayyids, mullahs, and other representatives of religion were persecuted, praying people were punished and those maintaining resistance were exiled. However, people were secretly following their faith and are currently free to pactice all the values they had once preserved. During the years of independence, we started to explore our cultural heritage according to ethnography in various towns and regions. One of the research objects is Shaki city, which has preserved Islamic traditions until present days; the fact that more than half of 12 mosques, located in various blocks of the city and most of them having ancient history, still operate, is an explicit evidence for it.

Most Muslim shrines in Shaki have been built close by graves of religious figures, who promoted Islam. Beliefs in sanctity of these people some days in the past have resulted in their graves being turned into sources of faith. People, not only from neighboring regions, but also from various regions of Azerbaijan, visit these sacred places.

Sacred places like Mammad Afandi, Yelbaba, Charshanba Ojagi (Tuesday hearth), Guldastah pilgrimage, Nurahmad Afandi, Haji Salman Afandi, Ibrahim Afandi, Galeychi Baba, Noyul Baba, Su Akhin Baba, Sheikh Ahmad Afandi, Salim Ami, Daghdivi shrines, Babaratma piri, Oskurma piri, Shikhahmad piri, and Nartopu shrines are consistently visited by people and draw great attention for their historical significance, mystic meaningfulness formed among people, rites and ceremonies, etc. Although, majority of them have been created around the graves of the holy persons, a part of them has been associated with the natural phenomena, and related to the stone,

tree, water and other cults. Such type of belief sources are also met in the moral culture of other Turkic nations. Within the research made in the article, along with using ethnographyc materials collected directly from the local population, at the same time, the scientific literature on this topic has also been referred to.

**Keywords:** Pilgrimages, Religious Affection, Religious Figures, Shaki, Sacred Places, The Moral Culture.

## GİRİŞ

Məqalədə Azərbaycan xalqının dini inam və etiqadlarında əsas yerlərdən birini tutan ziyarətgahlar və onların mənəvi həyatdakı rolundan bəhs olunur. Tədqiqat sahəsi qədim Azərbaycan şəhərlərindən olan Şəki şəhəri və onun ətraf kəndləri götürülmüşdür. Aparılan tədqiqatlar nəticəsində təsdiq olunmuşdur ki, şəhərin əsası hələ e.ə. VII əsrdə, yəni təxminən 2700 il bundan öncə sak tayfaları tərəfindən qoyulmuşdur. Şəhər tarixdə iki adla - "Şəki" və "Nuxa" adları ilə tanınmışdı [2, 3-4]. Bu adlar tarixin müəyyən dövrlərində şəhəri təmsil etməklə yanaşı, eyni zamanda buranın qədim tarixindən, ulu türk yurdu olmasından da xəbər verir. Böyük Qafqaz dağlarının ətəyində, "Şəki yaylası"nın və Aslan dağın cənub yamacında yerləşən şəhər amfiteatr şəklində salınmışdır. Maddi və mənəvi mədəniyyətinin zənginliyi ilə hər zaman diqqət çəkən və fərqlənən şəhər bugün də öz tarixiliyini qoruyub saxlayaraq, ölkəmizin istər siyasi, istərsə də iqtisadi, mədəni və dini həyatında mühüm mərkəzlərdən biri olmaqdadır. Tarixi mənbələrdən də məlumdur ki, Alban patriarx katolikosluğunun nəzdində olan beş yepiskopluqdan biri Şəkidə yerləşmişdir. VII əsrdə isə ərəblər Azərbaycana hücum etdikləri zaman işğal olunan şəhərlər içərisində Şəki də xərac verərək Xilafətin hakimiyyətini və islam dinini qəbul etmişdir [2, 5-6].

Türk və islam mədəniyyətinin birliyini özündə əks etdirən şəhərin etnoqrafik araşdırılması zamanı onu Azərbaycanın bir çox şəhərlərindən fərqləndirən məhəlli-lokal xüsusiyyətlər arasında dini inanclarına olan bağlılıq diqqəti xüsusilə cəlb etmişdir.

Məqalədə, bölgədə aparılan araşdırmalar zamanı birbaşa yerli əhalidən toplanmış çöl-etnoqrafik materialları ilə yanaşı, bu məsələyə həsr olunmuş zəngin elmi ədəbiyyatdan da istifadə olunmuşdur. Ərazidə yerli əhalinin davamlı ziyarət etdiyi Məmməd Əfəndi ziyarətgahı, Yelbaba ziyarətgahı, Çərşənbə ocağı, Güldəstə ziyarətgahı, Nurəhməd Əfəndi ziyarətgahı, Hacı Salman Əfəndi ziyarətgahı, Ibrahim Əfəndi ziyarətgahı, Qəleyçi baba ziyarətgahı, Nöyül baba ziyarətgahı , Su axın baba ziyarətgahı, Şeyx Əhməd Əfəndi ziyarətgahı, Səlim əmi ziyarətgahı, Dağdivi ziyarətgahı, Babaratma piri, Öskürmə piri, Şıxəhməd piri, Nartopu ziyarətgahı və digər ziyarət yerləri haqqında, onların yerləşdiyi məkan, mənşəyi, mahiyyəti, ətrafında yaranmış rəvayətləri haqqında məlumat verilir.

## MƏTN

Müasir dövrdə dinlərin tarixi, onların xalqların həyatındakı rolu, yayılma şəraiti və mərhələli tədqiqi, həmçinin müasirliklə tarixiliyin uzlaşdırılması məsələləri aktuallıq kəsb edir.

Ümumiyyətlə, sovetlər dönəmində Azərbaycanda ziyarətgahların və ya xalq arasında "ocaqlar" və "pirlər" adı ilə məlum olan, insanlar tərəfindən müqəddəs hesab

olunan yerlərin tədqiqatına nəinki diqqət göstərilmirdi, hətta bu mənəvi dəyərlərin tarixdən silinməsi və xalqın yaddaşından unudulması üçün kütləvi ateizm kampaniyaları təşkil olunurdu [8, 219-220]. Bu məqsədlə 1924-cü ildə “Din əleyhinə komissiya” təsis olunur, ”Allahsız” adlı jurnal çap edilərək Azərbaycanın bütün qəza və kəndlərinə yayılırdı. XX əsrin 20-30-cu illərindən başlayaraq islam dini əleyhinə mübarizə aparılır, ateizm ideologiyası geniş səkildə təbliğ edilir, zorakı yollarla xalq öz keçmiş adət-ənənələrindən uzaqlaşdırılır, milli geyimlər, o cümlədən papaqlar, çadralar qadağan olunur, Quran və dinə dair yazılmış kitablar yandırılır, məscidlər anbarlar, klublar və uşaq bağçalarına çevrilirdi [5, 4-5]. Əfəndilər, seyidlər, mollalar və digər din xadimləri təqib olunur, ibadətlə məşğul olanlar cəzalandırılır, müqavimət gostərənlər ölkədən sürgün olunurdular. Lakin bu qadağalara baxmayaraq, xalq gizli şəkildə öz inam və etiqadlarını davam etdirir, hazırda isə aşkarlıq şəraitində öz mənəvi dəyərlərinə sahib çıxmaqdadır.

Müstəqillik illərində mədəni irsimizin ayrı-ayrı şəhər və bölgələr üzrə etnoqrafik cəhətdən araşdırılmasına başlanaraq, milli-mənəvi dəyərlərimizə, soykökümüzə, adət-ənənələrimizə bağlılıq, onlara dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilir. Ümumazərbaycan üzrə aparılan tədqiqatlar nəticəsində XX əsrin 60-80-ci illərindən əhali tərəfindən müntəzəm şəkildə ziyarət edilən 300-dən çox pir və digər müqəddəs yerlərin olduğu və onların iki qrupa bölündüyü qeyd olunmuşdur. Birinci qrupa universal xarakter daşıyan və ən geniş təsir spektrinə malik olan müqəddəs yerləri, ikinci qrupa isə məhdud lokal funksional xüsusiyyətlərə malik olan müqəddəs məkanları və sitayiş yerlərini daxil etmək olar. Bu bölgüyə əsasən birinci qrupa islam dininin yayılması ilə əlaqədar formalaşan və sufi təriqət şeyxlərinə, ya da peyğəmbər nəslindən olan seyidlərə məxsus olan, ikinci qrupa isə islamaqədərki inanclarda təşəkkül tapan müxtəlif pirləri və müqəddəs yerləri şamil etmək olar.

Bu ziyarətgahların davamlı olaraq ziyarət olunması dini inancların unudulmasının, yaddan çıxmasının qarşısını almış, xalqımızda milli və dini hisslərin qorunub saxlanılmasında böyük rol oynamışdır [7;8].

Tədqiqat obyekti olan qədim Şəki şəhəri də bugün islam dini ənənələrini özündə qoruyub saxlayan Azərbaycan şəhərlərindən biridir. Şəhərin ayrı-ayrı məhəllələrində yerləşən və qədim tarixə malik olan on iki məsciddən əksəriyyətinin fəaliyyət göstərməsi də buna əyani sübütdur [1, 294-302].

Buradakı qəbir ziyarətgahlarının bir çoxu islam dininin təbliği ilə məşğul olmuş din xadimlərinin məzarları ətrafında yaranmışdır. Zamanında yerli sakinlərin bu insanların müqəddəsliyinə olan inami, sonradan onların məzarlarının inanc mənbəyinə çevrilməsinə səbəb olmuşdur. Ziyarətgahların bir qismi muqəddəs insanların məzarı ətrafında yaransa da, bir qismi təbiət hadisələri ilə bağlı olub, daş, ağac, su və digər kultlarla əlaqəlidir. Ümumiyyətlə, Şəkinin bütün dağətəyi və dağdibi kəndlərində ağac, səma, insan qəbirləri və heyvanlarla bağlı ziyarət yerləri mövcuddur. Bunların da tarixi kökləri qədim inanc sisteminədək gedib çıxır. Məsələn, Kiş məbədindəki keçi kultu ilə bağlı müqəddəs qəbir, Daşbulaqda yerləşən ziyarətgahda qurbanvermə mərasimində qurban olaraq yalnız keçi kəsilməsi və s. Bu tipli inanc mənbələrinə digər türk xalqlarının mənəvi mədəniyyətində də rast gəlinir.

Ümumiyyətlə, Şəkidə ən qədim ziyarətgah son eneolit, ilk tunc dovrünə (e.ə. IV minilliyin sonu III minilliyin əvvəlləri) aid olması arxeoloji faktlarla təsdiq olunmuş, I əsr Kiş-Alban məbədinin mehrab hissəsində yerləşən ziyarətgahdır.

Dinindən asılı olmayaraq sonradan yaranan ruhi xəstəliklərin müalicəsi üçün əhali bu ziyarətə müraciət edir. Mənbələrdə qeyd olunan bir məlumata əsasən hətta bir kahin də buranı təhqir etdiyinə görə ruhi xəstəliyə düçar olmuşdur [3].

**Ziyarətgahlar haqqında ümumi məlumat**

Məhəmməd Əfəndi ziyarətgahı - Köhnə İpək kombinatının yanında yerləşir. Bu ziyarətgah yerli əhalinin ən çox baş çəkdiyi inanc yeridir. Türbədə Şeyx Məhəmməd Əfəndi adlı islam dini ənənələrinə sadıq və sağlığında böyük hörmət sahibi olmuş bir insan dəfn olunubdur. Qəbrin təxminən 1780-ci ilə aid olduğu güman edilir. Deyilənə görə, 1838-ci ildə güclü sel zamanı hər yanı su basıb, təkcə Məhəmməd Əfəndinin məzarına zərər toxunmayıbdır. Dəfn olunduğu yer özünün şəxsi sahəsi olub və dünyasını dəyişərkən burada dəfn olunmasını vəsiyyət edib. Hazırda türbənin ətrafı qəbirstanlıqdan ibarətdir. Qəbir daşı qalmamışdır. Məzarın üzərində böyük ağaclar bitmişdir.

Yerli əhalidən aldığımız məlumata görə, nəinki çətinə düşənlər, hətta xeyir iş tutmaq istəyənlər onun yanına gələrək məsləhətini və xeyir-duasını alar və az müddət içərisində arzusuna çatardı. Xalq arasında onun möcüzələrindən bəhs edən rəvayətlər bugün də yaşamaqdadır. Yüksək mənəvi keyfiyyətlərə məxsus, islam dini əqidələrinə daim riayət edən, köməyə ehtiyacı olanların köməyinə tələsən biri olması dünyasını dəyişdikdən sonra da qəbrinin yerli əhali tərəfindən ziyarət yerinə çevrilməsinə səbəb olmuşdur. Adı ilə əlaqədar andiçmə forması da (Məmməd Əfəndi haqqı) yaranmışdır. Niyyət ziyarətidir, onu da qeyd edək ki, şəhərdə yeganə ziyarətgahdır ki, toy mərasimi təşkil olunan gün gəlingətirmə zamanı bəy-gəlin öncə bura gələr, dua oxutdurub, nəzir qoyar daha sonra toy edilən məkana gedərlər. Uzaq yola çıxanlar da bura gəlib dua oxutdurmadan yola cıxmazlar. Ziyarətgahın aylıq ziyarətçilərinin sayı 500-600 nəfər olur. Türbəyə "müceyr" və ya "mücöür" adlanan şəxs nəzarət edir.

Məhəmməd Əfəndi ilə Oxut kəndində yerləşən Yelbaba ziyarətgahındakı qəbirlərdən birinin arasında qohumluq əlaqəsi olduğu da güman edilir. Bunu da qəbirlərdən birinin başdaşında yazılmış sözlər ("Molla Məhəmməd Əfəndinin oğlu Molla Ömər Əfəndi") göstərir. Lakin başdaşı üzərindəki yazı tam oxuna bilmədiyinə görə dəqiq fikir söyləmək mümkün olmamışdır [4, 77-78].

Mustafa Əfəndi ziyarətgahı – Şəkidə Yuxarıbaş məhəlləsində, birinci rayonda, Ağamalı küçəsində yerləşmişdir. Yerli əhalinin dediyinə görə vaxtilə bura cümə məscidinin yerləşdiyi bina olmuşdur. Hazırda onun yalnız özül hissəsi qalmışdır. Məscid binasından kənarda minarə də tikilmişdir. Minarənin üstündə onun 1880-ci ildə inşa olunduğu qeyd olunmuşdur. Minarənin qarşısında böyük alim Mustafa Əfəndi dəfn olunmuşdur. Alimin bütün həyatı və fəaliyyəti məscidlə bağlı olmuşdur. Ölümündən sonra qəbri yerli əhalinin ziyarət etdiyi müqəddəs məqbərəyə çevrilmişdir. Onu da qeyd edək ki, alim minarənin tikilməsindən bir il sonra vəfat etmişdir. Başdaşı üzərindəki haşiyədə azərbaycanca bir beyt də yazılmışdır [4, 76]:

"İsmi pakın həmişə yad edəlim,
Ruhunu fatihəylə şad edəlim".

Çərşənbə ocağı – Qəbir ziyarəti olub. Rəvayətə görə, tarixi 1456-cı ildən hesablanır. Əsasən həftənin üçüncü və altıncı günləri ziyarət olunur, bu da burada dəfn olunan şəxsin Şəkiyə çərşənbə günü gəlməsilə əlaqədardır. Nurəhməd ağa ziyarəti də deyilir. İki qardaş bir bacı olublar. Bacısının qəbrinin də Zaqatalada ziyarət yerinə

çevrildiyi söylənilir. Bura gəlib namaz qılarkən rəhmətə gedib və burada da dəfn olunub. Yerləşdiyi yer boş səhralıq olub. Sonra rəvayətə görə, bir quş dimdiyində toxum gətirib buraya səpmiş və bu qəbrin üzərində ağac göyərib. Hazırda qəbrin yerini bu ağac müəyyən edir.

Çərşənbə ocağına övladı olmayanlar və qorxuluğu olanlar müraciət edirlər. Ziyarətgahda qəbir ətrafına dolanma, daş sürtmə, tütyə içmə kimi ayinlər həyata keçirilir. Övladı olmayanlar gəlib niyyət edir, parçadan "yürtməç"- beşik düzəldib ağaca keçirir. İnama görə düyün salmaq olmaz, cünki düyün niyyəti bağlayar. Bununla yanaşı övladı olmayan adamın paltarının içərisinə "ağac göyərən" vaxtı ondan qoparıb bağlayır, sonra da ağacdan asırlar və az vaxtda niyyət gerçək olur. Şəkidə hətta belə bir alqış da var: "Səni görüm göyərəsən"- yəni "oğul-övlad sahibi olasan" mənasında işlədilir. Ziyarətçilərinin sayı çoxdur, onların içərisində ətraf bölgələrin sakinlərinə də təsadüf olunur.

Yelbaba ziyarətgahı - Şəkinin Oxut kəndində yerləşir. Əhalinin böyük inam obyektinə daxil olan ziyarətgahdır. On əsrdən çox yaşı vardır. İslam dini ilə bağlı yaranmış ziyarətgahlardandır. Qəbiristanlıqda yeddi ziyarət yeri yerləşir. İlk iki ziyarət qəbri Oxut kəndində ilk dəfə Həcc ziyarətinə gedib-gələn Əhməd Əfəndi baba və Məmməd Əfəndi baba adlı şəxslərə aiddir. Bura evi olmayan insanlar gəlir, niyyət edib şam yandırırlar. (burda şam el inancına görə "işığa çıxmaq", bir növ qaranlıqdan qurtulmaq deməkdir). Üçüncüsü, Suriyadan islamı yaymaq məqsədilə bura gələn və dünyasını dəyişdikdən sonra burda dəfn olunan səkkiz qəriblərin qəbridir. Bu qəbirləri də bəxti açılmayan qızlar, övladı olmayan qadınlar ziyarət edib, niyyət edirlər. Dördüncüsü, Yelbaba, məzar yeri demək olar ki itib, bu ziyarətgaha da adından göründüyü kimi yel və zob xəstəliklərindən şəfa tapmaq məqsədilə gəlirlər. Deyilənə görə üzərində neçə dəfələrlə türbə tikmək istəsələr də dağılıbdır. Beşincisi, İsa baba, bura da hərəkət orqanları problemləri ilə əlaqədar şikəst insanlar müraciət edirlər. Altıncısı, Rəcəb Əfəndi baba, bu da baş ağrısı və qorxunu götürür. Digərlərindən fərqli olaraq bura həftənin üçüncü və altıncı günləri gəlmək lazımdır. Yeddincisi, Abdulla Əfəndi baba, bura hər cür niyyət götürür. Ümumiyyətlə, Şəkidə yeddi övliya olub ki, bunları da Yelbaba ilə əlaqələndirirlər, amma müxtəlif fərziyyələr olduğu halda onların dəqiq kimliyi bilinmir. Ziyarətdə hicri-qəməri təqvimi ilə 1329-cu ildə tikildiyi göstərilən məscid də yerləşir [1, 298].

Babaratma piri – Babaratma piri Şəkinin Babaratma kəndində yerləşir. Pir kompleksinə məqbərə, məscid, ətrafında yaranmış qəbiristanlıq daxildir. XIX - XX əsrin əvvəllərinə aiddir. Məscid- məqbərə binasının üzərindəki kitabə pirin tarixi haqqında məlumat verən ilkin mənbədir. Kitabə ərəb dilində yazılıb və mətni belədir: "Mərhəmətli və rəhimli Allahın adıyla! Bu qəbir məşhur alim seyid... Hac-əl-Hərəmeyn (iki müqəddəs yerin) hacısı Hacı ağa Məhəmmədindir. Allahın və Allahın valisinin köməyi və onun müqəddəsliyi ilə bu binanı bərpa etməyə başladı. Hac-əl-Hərəmeyn Seyid Hacı ağa Məhəmməd Əfəndi ibn Seyid Qasım Çələbi ibn Seyid Qədaş Çələbi Əfəndi ibn Seyid Hacı Şeyx Dədə Mürsəl Şeyx Babarata 1005-ci ildə "(1596-1597)

Kitabədən göründüyü kimi, məqbərə onu bərpa etdirən Hacı Məhəmməd Əfəndiyə məxsus olmuşdur. Burada eyni zamanda Hacı Məhəmməd Əfəndinin özündən əvvəlki sələfləri "seyid, "başçı", "rəhbər" kimi göstərilərək sonuncunun Şeyx Dədə Mürsəl – "Şeyx Babaratma" olması qeyd olunur. Buradakı ribat-xanəgahın

fəaliyyəti isə çox güman ki, XIII- XIV əsrlərə aiddir. Məscid-türbə binasının içərisində divara hörülmüş kitabədə buranın Peyğəmbər əleyhissalamın hicrətindən sonra 1100-cü ildə ziyarətgahda yaşayan Molla Abdulla ibn Molla Əbdül tərəfindən bərpa olunduğu yazılıb [1, 300]. Niyyət ziyarətgahıdır.

Şeyx Əhməd Əfəndi Baba ziyarətgahı – Şəkinin Baş Şabalıd kəndində yerləşir. Hicri 1315-ci ilə aid olub, ərəb əsilli bir şəxsin qəbri ətrafında yaranıbdır. Niyyət ziyarətgahıdır. Ziyarətçilər qurban kəsir, mövlud oxutdururlar. Burada tez-tez peyğəmbər və əshabələrinin şəninə mövlud mərasimləri təşkil olunur. İşi çətinə düşənlər: “filan işim həyata keçsin, Şabalıd şeyxinin evində mövlud oxutduracam” deyib niyyət edirlər. Ziyarətgahdə ağaca lent baglamaq adəti də var.

Şıx Abdulkərim Baba ziyarətgahı - Giləhli məhəlləsində, Mustafa bəyin yerinə gedən yolda yerləşir, niyyət ziyarətgahıdır. Məhəlli xarakter daşıyır. Ziyarətdə qurban kəsilir, nəzir qoyulur.  Patronim rəhbərinin adı ilə bağlıdır.

Alı Kərim Əfəndi ziyarətgahı – Şəhərin Dodu adlanan hissəsindəki köhnə qəbiristanlıqda yerləşir. Qəbir yerləri demək olar ki, itib. Niyyət ziyarətgahıdır, qurban kəsilir, nəzir qoyulur.

Ərazi Alı Kərim Əfəndi ziyarətgahından öncədə inanc yeri sayılırdı. Keçən əsrlərdə Dodunun yuxarı hissəsində Kilsətəpə deyilən yerdə alban məbədi olmuşdur. Deyilənə görə bu məbədin Kiş məbədi ilə mənəvi bağlılığı var idi. Bütün bunlar əhali tərəfindən ərazinin müqəddəsliyinə olan inancı daha da gücləndirmişdir.

Dağdibi ziyarətgahı – Şəhərin Dağdibi adlanan hissəsində yerləşir. Niyyət ziyarətgahıdır. Dinə xidmət edən naməlum bir  şəxsin qəbri ətrafında yaranıb. Ziyarətgahda namaz daşı vardır. Ziyarətçilər niyyət edib, lent bağlayır, niyyəti qəbul olunduqdan sonra qurban kəsirlər.

Bunlarla yanaşı İbrahim Əfəndi ziyarətgahı (göz ağrısı ilə bağlı), Qəleyçi Baba ziyarətgahı (yel xəstəlikləri ilə bağlı), Səlim Əmi ziyarətgahı (yara götürür), Nurəhməd Əfəndi ziyarətgahı (murad baba da deyilir), Hacı Salman Əfəndi ziyarətgahı da yerli əhali tərəfindən ziyarət olunan ziyarətgahlardandır.

## SONUÇ

Göründüyü kimi insanlar uzun əsrlər ziyarətgahlardan arzuların həyata keçməsi,  xəstəliklərin müalicəsi, sıxıntı və çətinliklərdən qurtuluş vasitəsi kimi istifadə etmişlər. Amma buna baxmayaraq bu ziyarət yerləri tarixin müəyyən sınaqlarından keçərək öz ənənələrini bugünədək qoruyub saxlamış və yerləşdiyi ərazinin tarixi mənbəsi olaraq yerli əhalinin məişət və mədəniyyətindən xəbər verməkdədir. Bu müqəddəs yerlərin davamlı olaraq yerli əhali tərəfindən ziyarət olunması xalqın dini inam və etiqadlarının unudulmamasına kömək etmiş və bugünə kimi gəlib çıxmasına səbəb olmuşdur.

Şəkidə pir adı ilə bağlı ziyarətgahların əksəriyyəti  islam dini ilə və ya nəsil başçıları ilə əlaqəlidir. Çox güman ki, bəzi pirlər ola bilsin dərin tarixi kökə malik əcdada inam kultu, ağac kultu, su kultu, daş kultu ilə də bağlıdır. Onu da qeyd edək ki, Şəkidə islamla əlaqəli ən böyük ziyarətgahlar islam dininin missioner dövrü ilə bağlı olubdur. Məsələn, Şıxqaplan (Baş Göynük), Şıxosman (Əlyar), Babaratma (Babaratma), Şalburuz və s. Bu insanlar dindar olmaqla yanaşı müəyyən fenomen xüsusiyyətlərə (xəstəliklərin müalicəsi , öncədən görmə, xalq təbabəti və s.) də malik olublar.

Beləliklə, xalqımızın inam və etiqadında mühüm yer tutan müqəddəs yerlərin tədqiqatının nəticəsi onu göstərir ki, Şəkidə ziyarətgahlar, pirlər, ocaqlarla bağlı daha geniş elmi araşdırmalar aparılmalı, onların xalqın məişət və mədəniyyətində tutduğu yer hərtərəfli tətqiq edilməlidir.

## QAYNAQLAR

1. Azərbaycan Respublikasının məscidlər ensiklopediyası, Bakı, "Beynəlxalq Əlhuda Nəşriyyatı", 2001, 310 səh.

2. İsmayılov M. Şəki. Bakı : Azərnəşr, 1981, 150 səh.

3. Kalankatuklu M. Albaniya tarixi. Bakı: Elm, 1993

4. Nemət M. Azərbaycanda pirlər. Bakı :Azərnəşr, 1992

5. Şahbazov T.S. Azərbaycanda islamaqədərki inamlar, Bakı, "Xəzər Universiteti" nəşriyyatı, 2008, 164 səh.

6. Şəkidə məhəllə adları, soyadlar və ləqəblər, I kitab, Bakı, "Nafta-Press" nəşriyyatı, 2004, 346 səh.

7. Мещанинов И.И. Пиры Азербайджана. Ленинград // Изв. Гос. Акад. Ист. Материал. Культуры (ИГАИМК) т.9, вып. 4, 1931.

8. Ямпольский З.И. Пиры Азербайджана. Москва // Вопросы Истории Религии и Атеизма, вып. VIII, 1960, стр. 219-239.